**Mədinə Vəliyeva,**
*Şəbəkə kitabxanalarına AKİS-in tətbiqinə dəstək şöbəsinin müdiri*

# 100 YAŞLI MİLLİ KİTABXANANIN 60 YAŞLI ŞÖBƏSİ (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Diyarşünaslıq biblioqrafik resursların yaradılması" şöbəsinin tarixindən)

***Xülasə:*** *Məqalədə Diyarşünaslıq biblioqrafik resursların yaradılması şöbəsinin 60 illik fəaliyyətindən, görülən iş proseslərindən bəhs olunur.*

***Abstract:*** *The article talks about the 60-year activity of the Diyarşunaslık bibliographic resource creation department and the work processes carried out.*

***Резюме:*** *Статья посвящена славной 60-летней истории отдела «Создание краеведческих библиографических ресурсов». Рассказывается о деятельности отдела и его рабочих процессах.*

***Açar sözlər:*** *Diyarşünaslıq, biblioqrafiyalaşdırma, biblioqrafik resurs, Azərbaycanşünaslıq.*

***Key words:*** *Local studies, bibliography, bibliographic resource, Azerbaijani studies.*

***Ключевые слова:*** *Краеведение, создание библиографий, библиографические ресурсы, азербайджановедение.*

2023-cü il bir çox əlamətdar hadisələrlə zəngindir. Belə ki, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilmiş, Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilmiş, Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı başlamış və M.F.Axundov adına Milli Kitabxananın fəaliyyətə başlamasının bir əsri tamam olmuşdur.

Cənab Prezident 24 iyun 2023-cü ildə tarixində "Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda kitaba, kitabxanaya yüksək qiymət verərək demişdir: "Azərbaycan Milli Kitabxanası yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir".

Milli Kitabxananın əməkdaşları öz işlərini Sərəncamdan irəli gələn müddəalar - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı hazırladığı tədbirlər planına əsasən həyata keçirir.

Azərbaycan Milli Kitabxanası dünyada tanınan ən böyük milli kitabxanalardan biridir. Kitabxana 1922-ci ildə təsis edilmiş, rəsmi açılışı isə 1923-cü il may ayının 23-də olmuşdur. İllər keçdikcə kitabxananın fəaliyyət dairəsi genişlənmiş, onlarca yeni şöbələr yaranmış, fondlarında ədəbiyyatın sayı milyonlara çatmışdır.

Kitabxananın "Diyarşünaslıq biblioqrafik resursların yaradılması" şöbəsi artıq yarım əsrdən çox Azərbaycanı öyrənmək, onu dünyaya tanıtmaq, təbliğ etmək və sevdirmək kimi nəcib bir işlə məşğul olmuşdur. Şöbə XX əsrin 40-cı illərində təşkil edilmişdir. O zaman M.F.Axundov adına Respublika Kütləvi Kitabxanası adlanan elm ocağının nəzdində yaradılmış Məlumat-biblioqrafiya şöbəsində Diyarşünaslıq bölməsi kimi əsası qoyulan, 1974-cü ildən müstəqil "Diyarşünaslıq və milli biblioqrafiya", bu gün isə "Diyarşünaslıq biblioqrafik resursların yaradılması" adı ilə fəaliyyət göstərən şöbə geniş inkişaf yolu keçmişdir.

1963-cü ildə yaradılmış Diyarşünaslıq bölməsinin işi kitabxana fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Buna maraq millətin öz soykökünü öyrənmək, milli-mənəvi dəyərlərini, mədəniyyətini formalaşdırmaq, diyarın, şəhərin, regionun tarixini araşdırmaq, dərk etmək, yaşatmaq istəyindən irəli gərirdi. Təsadüfi deyil ki, rus akademiki D.S.Lixaçov diyarşünaslığı tərbiyəvi elm adlandırmışdır. Diyarşünaslıq informasiyası elə bir informasiya məhsuludur ki, tələbatçılar tərəfindən həmişə tələb olunur, istifadə edilir.

Bu məqsədlə yaradılan bölmənin əsas vəzifəsi ilk növbədə Azərbaycana dair bütün materialları toplayıb araşdırmaq, habelə respublikada nəşr olunan bütün dövri mətbuat, kitab və məcmuələr üzrə axtarışlar aparmaq, oxucuların istifadəsinə vermək, ayrı-ayrı təşkilatlar üçün biblioqrafik informasiyalar hazırlamaq, kitabxanalara bu işin təşkilində köməklik göstərməkdən ibarət idi.

Bu illərdə oxuculara məlumat-biblioqrafiya xidmətinin təşkilində müstəsna əhəmiyyətə malik olan "Azərbaycanşünaslıq" kartotekasının da əsası qoyulmuşdur.

Sov.İK MK-nın "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" 1974-cü il qərarından sonra Diyarşünaslıq bölməsi "Diyarşünaslıq və milli biblioqrafiya" adı ilə müstəqil şöbə kimi fəaliyyətə başlamışdır. Şöbənin ilk müdiri Əməkdar mədəniyyət işçisi İrina Vladimirovna Şibayeva olmuşdur. Onun rəhbərliyi altında şöbəyə gənc ali-ixtisas təhsilli mütəxəssilər dəvət edilmiş, şöbənin yeni "Əsasnaməsi" hazırlanmışdır.

Şöbədə Şükufə Əfəndizadə, Suğra Salmanova, Bikə Hüseynova, Şövkər Zeynalova, Tamara Həsənova, Rəna Muradova, Həyat Zeynalova, Dilarə Kəmimova, Nəzirə Nağıyeva, Ofelya Xəlilova kimi peşəkar biblioqraflar fəaliyyət göstərmişlər. Onların gərgin əməyi nəticəsində şöbədə Azərbaycan və rus dillərində "Azərbaycanşünaslıq" toplu katoloqu, eyni adlı tövsiyə kartotekası və xarici ölkələr haqqında milli dildə çap olunan ədəbiyyatı özündə əks etdirən "Ümumi" kartoteka yaradılmışdır. Adları çəkilən kartotekaları zənginləşdirmək məqsədilə təkcə Azərbaycanda deyil, həm də respublikadan kənarda çap olunan bütün materiallar peşəkarlıqla nəzərdən keçirilərək, mövzuya aid ədəbiyyat seçilmiş və kitabxana qaydası ilə təsvir edilərək, müvafiq kartotekalara yerləşdirilmişdir.

Şöbədə informasiya-biblioqrafiya xidməti sahəsində də mühüm işlər görülmüşdür. Şifahi və yazılı arayışlar, yeni ədəbiyyat haqqında informasiyalar bu işin əsasını təşkil edir. İl ərzində yüzlərlə şifahi, onlarla yazılı arayış tərtib edilmişdir. Məsələn, Kanadanın Toronto şəhəri üçün "1920-1940-cı illərdə Azərbaycan qrafika sənəti", Moskva şəhəri üçün "Azərbaycan şəhərində tramvay, trolleybus, avtobus və metronun inkişaf tarixindən", Belçikanın Antverpen şəhərində nəşr olunan beynəlxalq kitab illiyinin nəşri üçün hazırlanan "Azərbaycanda mətbuat tarixi və kitabxana işinə dair çap olunmuş ədəbiyyat haqqında" informasiya, MDB ölkələri Kitabxanaları Assosiasiyası üçün "Azərbaycanın əlamətdar və tarixi günləri", Moskva Dövlət Pedaqoji Universiteti üçün "Aleksandr Blok Azərbaycan mətbuatında", Dağıstanda fəaliyyət göstərən "Ədalət" Cəmiyyəti üçün "Dağıstan şəhərinin tarixi və Dərbəndnamələr" və başqa mövzulara aid biblioqrafik yazılı arayışlar hazırlanmışdır.

Şöbənin fəaliyyətinin prioritet istiqamətlərindən biri də biblioqrafik vəsaitlərin tərtib olunması idi. Şöbə 1974-cü ildən "Kənd təsərrüfatına dair yeni kitablar", "Azərbaycan SSRİ mətbuatında, "Azərbaycan xarici mətbuatda" adlı biblioqrafik göstəricilər, o cümlədən yubileylərlə əlaqədar bukletlərin hazırlanması ilə də məşğul olmuşdur.

80-ci illərdə şöbənin müdiri İ.V.Şibayeva təqaüdə çıxmış, onun əvəzinə şöbəyə uzun illər baş biblioqraf işləmiş Həyat Zeynalova təyin edilmişdir. Həyat xanımın rəhbərliyi ilə şöbənin fəaliyyəti genişlənmişdir. Belə ki, şöbə 1987-ci ildə "Bakı İdman Komitəsi" tərəfindən Fəxri Fərmanı ilə təltif edilmiş, 1988-ci ildə Poltava şəhərində A.S.Makarenko Dövlət ev-muzeyinin yaradılmasında yaxından köməklik göstərdiyinə görə V.Q.Korolenko adına Poltava Pedaqoji İnstitutunun "Təşəkkürnamə"si ilə təltif edilmiş və şöbəyə digər idarə və təşkilatlar tərəfindən təşəkkür məktubları göndərilmişdir. Həyat xanım Zeynalova 1994-cü ilə qədər şöbə müdiri vəzifəsində işləmişdir. 1994-cü ildə kitabxanada keçirilən attestasiyanın qərarı ilə gənc mütəxəss kimi Mədinə Vəliyeva şöbə müdiri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Respublikasının öz müstəqilliyini yenidən bərpa etməsi şöbənin fəaliyyətində də özünü göstərmişdir. Belə ki, mövzud vəziyyətlə əlaqədar şöbədə aktual problemlərə aktiv münasibət yaranmış, kataloq və kartotekalarda yeni bölmələr açılmış, aktual mövzulu yarımbölmələr oxucuların ixtiyarına verilmişdir.

Kitabxana işinin modernləşdirilməsi və avtomatlaşdırılması ilə əlaqədar şöbə əməkdaşları "Azərbaycanşünaslıq" kataloq və kartoteka sisteminin tədricən müasir infomasiya daşıyıcılarına köçürülməsi işi ilə məşğul olmuşdur. 500 mindən çox məqalənin analitik təsviri kitavxananın elektron kataloquna salınmışdır.

Kitabxana fəaliyyətinin prioritet istiqamətlərindən biri də biblioqrafik vəsaitlərin tərtib olunmasıdır. Kitabxanada aparılan struktur dəyişikliklərindən sonra şöbənin də işində bir sıra yeniliklər edildi. Belə ki, şöbənin əməkdaşlarına ancaq biblioqrafiyaların tərtibi, redaktəsi və nəşri ilə məşğul olmaq tapşırıldı. Əməkdaşlar tərəfindən 100-dən çox biblioqrafiya tərtib edilərək nəşr edilmişdir.

Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Heydər Əliyev" (Vəliyeva M., İbrahimova M, Hüseynova A.), "Zərifə Əliyeva" (Vəliyeva M.), "Əziz Əliyev" (Vəliyeva M., İbrahimova M., Misirova G.), "Aida İmanquliyeva" (Vəliyeva M.), "Nizami Gəncəvi" (İbrahimova M., Misirova G.), "Cəlil Məmmədquluzadə" (Vəliyeva M., Şirinova L., Manafova H.), "İmadəddin Nəsimi" (Vəliyeva M., Əfəndiyeva G., Misirova G.), "Qara Qarayev" (Vəliyeva M., İbrahimova M., Misirova G.), "Mir Cəlal" (Vəliyeva M., İbrahimova M.); "Lütfi Zadə" (Şirinova L.), "Bəxtiyar Vahabzadə" (Vəliyeva M., Əsədova S.); "Mirzə Ələkbər Sabir-150" (Həsənova M., Misirova G.), "Teymur Elçin" (Vəliyeva M., İbrahimova M., Əsədova S.), "Mikayıl Abdullayev" (Cəfərova M.), "Bülbül" (Vəliyeva M., İbrahimova M., Misirova G.), "Akademik Mirzə İbrahimov" (M.Vəliyeva), "Azərbaycan Milli Kitabxanası-90" (Vəliyeva M., Şirinova L.), "Molla Pənah Vaqif" (Vəliyeva M., İbrahimova M., Misirova G.), "Səməd Vurğun" (Vəliyeva M. və b.), "Xəlil Rza Ulutürk" (Vəliyeva M., Şirinova L., Misirova G.), "Tahir Salahov" (Əsədova S., Şirinova L.), "Yusif Vəzir Çəmənzəminli" ( Vəliyeva M., Şirinova L., Misirova G.), "Əzizə Cəfərzadə" (Əfəndiyeva G.), "Sabir Rüstəmxanlı" (Abbasova X., Əhmədova Z.), Xurşidbanu Natəvan" (Vəliyeva M., Quliyeva G.), "Emin Sabitoğlu" (Abbasova X.), "Vilayət Quliyev" (Əfəndiyeva G.), "Fikrət Əmirov" (Vəliyeva M.), "Hüseyn Abbaszadə" (Əfəndiyeva G.), "Əhməd Cavad" (Cəfərova M.), "Rauf Hacıyev" (Şirinova L.), "Müslüm Maqomayev" (Şirinova L.), "Nəriman Nərimanov" (Vəliyeva M., Cəfərova M., Manafova H.), "Əbdürrəhim bəy Haqverdiyev" (Şirinova L., Abbasova X.), "Süleyman Rəhimov" (Əfəndiyeva G.) adlı fundamental şəxsi biblioqrafiyalar, "Azərbaycan

xalça sənəti” (Nağıyeva N.), “Şuşa tarixi mənbələrdə”, “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” (Abbasova X.), “Azərbaycanda aviasiya tarixi”, “Azərbaycan 1941-1945-ci illər Böyük Vətən Müharibəsində” (Vəliyeva M., Manafova H., Abbasova X.), «Азербайджан в годы Великой Отечественной войны» (Vəliyeva M., Şirinova L.), “Azərbaycan Xalq Cumhuriyyəti – 100” (Vəliyeva M., Əhmədova Z., Hüseynova A.) və s. adda mövzu biblioqrafiyaları tərtib edilmişdir. Kitabxanada bu biblioqrafiyaların mütəmadi olaraq təqdimatı da keçirilmişdir. Biblioqrafiyaların elektron variantı Milli Kitabxananın saytında “Nəşrlərimiz” bölməsində yerləşdirilmiş, istifadəçilərin ixtiyarına verilmişdir.

Cari il ərzində plan üzrə yubileyləri qeyd ediləcək dövlət, elm və mədəniyyət xadimləri haqqında “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından 8 fundamental elmi-köməkçi biblioqrafik göstərici: Ümumilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 ilik yubileyi münasibətilə “Heydər Əliyev. Kitablar aləmində”, “Akademik Zərifə Əlieva – 100”, “M.F.Axundzadə adına Milli Kitabxana – 100”, “Ziya Bünyadov”, “Hacı Zeynalabdin Tağıyev”, “Salam Qədirzadə”, “Nigar Rəfibəyli” və “Arif Məlikov” adlı biblioqrafiyaların tərtib edilməsi nəzərdə tutulmuşdur. Plandan əlavə, Xalq yazıçısı Anarın anadan olmasının 85 illiyi münasibətilə “Anar” adlı biblioqrafik vəsait hazırlanır.

“Diyarşünaslıq biblioqrafik resursların yaradılması” şöbəsinin əməkdaşları ali ixtisas təhsillli, öz işlərinə məsuliyyətlə yanaşan, peşəkar biblioqraflardır. Şöbənin işgüzar əməkdaşlarının biblioqrafik fəaliyyəti dövlətimizin diqqətindən kənarda qalmamışdır. Şöbənin ilk müdiri İrina Vladimirovna Şibayeva 1973-cü ildə “Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülmış, baş kitabxanaçı Bikə Hüseynova 1970-ci ildə “Rəşadətli əməyə görə” medalı, 1971-ci ildə isə “Qırmızı Əmək Bayrağı” ordeni ilə, şöbənin 11 işçisi “Əmək Veteranı” medalı ilə təltif edilmişdir. Şöbənin müdiri Mədinə Vəliyeva isə Milli Kitabxananın yaradılmasının 90 illik yubileyi ilə əlaqədar 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevinn Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilmişdir. Bundan başqa, əməkdaşlarımız digər təşkilatların – Xəzər Dəniz Gəmiçilik İdarəsi, Rusiya Dövlət Kitabxanası, Suraxanı Neft və Qazçıxarma İdarəsi, Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi Cəmiyyəti tərəfindən təşəkkür və fəxri fərmanlarla təltif olunmuşlar.

## ƏDƏBİYYAT


**1.** Azərbaycan Milli Kitabxansının 2013-2022-ci il üçün hesabatları.

**2.** İsmayılov, N. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət: nəzəri-tarixi, təşkilati-metodiki məsələləri /Nadir İsmayılov, Qəmzə Hacıyeva; elmi red. Z.H.Əliyev; Azərb. Resp. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi; Respublika Elmi-Texniki Kitabxanası; Bakı Dövlət Universiteti.- Bakı: Mütərcim, 2004.- 111 s.

**3.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər /K.Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red. N.İsmayılov, K.Aslan.-Bakı, 2008.- 218s.

**4.** Vəliyeva, M. Biblioqrafik biliyin təbliği /Mədinə Vəliyeva //Mədəni-maarif.- 2004.- №2-3.- S.38-39.

**5.** Vəliyeva, M. Diyarşünaslıq biblioqrafiyası Milli Kitabxananın biblioqrafik fəaliyyətinin prioritet sahəsi kimi /Mədinə Vəliyeva //Azərbaycan Milli Kitabxanası-90: məqalələr məcmuəsi /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası.- Bakı, 2013.- S.62-72.

**6.** Vəliyeva, M. Kitabxanalarda biblioqrafik kartotekaların tərtibi metodikası /Mədinə Vəliyeva //Mədəni-maarif.- 2002.- №8-9.- S.31.

**7.** Vəliyeva, M. Milli Kitabxananın biblioqrafik nəşrləri: (2010-2014-cü illər) /Mədinə Vəliyeva //Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri.- 2015.- Buraxılış 7.- S.148-151.

**8.** Zeynalova, H. Diyarşünaslıq və milli biblioqrafiya: məqsəd vətəni öyrənmək, onu təbliğ etmək və sevdirməkdir /Həyat Zeynalova //70 il xalqın xidmətində: ( M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının tarixinə dair materiallar məcmuəsi.- Bakı, 1993.- S.51-54.

**9.** Шибаева, И.В. Из истории развития библиографической деятельности Азербайджанской Государственной библиотеки им. М.Ф.Ахундова (К 50-летию библиотеки) /Ирина Шибаева //Советская библиография. - 1974.- №1.- С.31-39.